**2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar vətəndaş İbrahimov Tahir Həbib oğlu və digərlərinin 26 dekabr 2009-cu il tarixli 108 saylı müraciətinə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının**

**Q Ə R A R I**

2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar 82 saylı Ağcabədi seçki dairəsi üzrə Şənlik bələdiyyəsinin üzvlüyünə namizəd İbrahimov Tahir Həbib oğlu və digərləri Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına teleqramla müraciət edərək, adı çəkilən seçki dairəsinin 16 və 17 saylı məntəqə seçki komissiyaları və yerli icra hakimiyyətinin nümayəndələri tərəfindən qanunsuz hərəkətlərin edilməsini bildirmiş və qanunla müəyyən edilmiş qaydada tədbirlər görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimata uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən araşdırılaraq bu barədə müvafiq rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Mərkəzi Seçki Komissiyasının müvafiq qərarı ilə müraciətin tam, hərtərəfli və obyektiv araşdırılıması məqsədilə araşdırma müddəti uzadılmışdır.

Araşdırma nəticəsində 16 saylı MnSK-nın sədri Nazim Mirzəyevin, 17 saylı MnSK-nın sədri Hüsü Məmmədovun, seçilməmiş bələdiyyə üzvülüyünə namizədlər Sadıq Kazımovun, Bəhram Quliyevin, Qinyaz Ağayevin, müşahidəçilər Musa Süleymanovun, Aslan Əliyevin, Əli Vəliyevin, Rövşən Səfərovun, Məhəmməd İsmayılovun, Vidadi Quliyevin, Aqil Səlimovun izahatlarından məlum olmuşdur ki, 82 saylı Ağcabədi seçki dairəsi üzrə Şənlik bələdiyyəsinə seçkilər Azərbaycan Respublikasının Seçki Qanunvericiliyinin tələbinə uyğun keçirilmiş və yerli icra hakimiyyəti işçiləri tərəfindən seçkilərə müdaxilə edilməmişdir.

Beləliklə də, müraciət əsassız hesab edilərək təmin edilməməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimatın" 1, 2, 4, 6 və 7-ci bəndlərinə əsasən **q ə r a r a a l ı r :**

1. Vətəndaş İbrahimov Tahir Həbib oğlu və digərlərinin 26 yanvar 2009-cu il tarixli 108 saylı müraciəti əsassız olduğundan təmin edilməsin.

2. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

| | |
|---|---|
| Sədr | Məzahir Pənahov |
| Katib | Natiq Məmmədov |
| Üzvlər | Fuad Cavadov |

Ramiz İbrahimov

Validə Kazımova

Qabil Orucov

Tofiq Həsənov

İlham Məmmədov

Nizami Nadirov

Azər Tağıyev

Tamam Cəfərova

Rövşən İsmayılov

Oktay Hümbətli